Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# "Cavanlar teatra gələndə həmin gün mənim üçün bayram olur"

## Ədalət Hacıyev: "Teatrın gənclərdə həm elmi, həm tərbiyəvi rolu çox böyükdür"

Müsahibimiz Akademik Rus Dram Teatrının direktoru Ədalət Hacıyevdir. Onun müsahibəmizdə həyat və yaradıcılığı ilə bağlı söhbətləşdik.

*- Ədalət müəllim, sizin barənizdə internetdə araşdırma aparanda yalnız onu öyrənmək mümkündür ki, 1989-cu ildən Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında çalışırsınız. Belə ki, 1989-2008-ci illərdə direktor müavini, 2008-ci ildən isə direktor vəzifəsində işləyirsiniz. Bütün bunların xaricində sizi oxucularımıza necə təqdim edə bilərik, özünüz haqda nə deyə bilərsiniz?*

- Belə statistik məlumatlar aldım, xoş oldu. Amma doğrudan, bu teatra mən direktor müavini kimi gələndə, sözün açığı, özümə çox inanmırdım. Çünki mən iqtisadçıyam. Teatr sahəsində çalışmaq üçün incəsənət təhsilim yox idi. Ona görə əvvəl dedim ki, baxıb görüm nə olacaq. Əvvəlcə mənə çox qəribə görsənirdi. Teatr elə bil yerdir ki, teatrda çalışdıqca adam sözün yaxşı mənasında, "xəstələnir". Mən burda gördüm ki, həm istehsalat, həm də sənət var. Bir yazıçının hansısa əsərinin üzərində çoxlu-çoxlu adamlar çalışır. Sonra bunları tamaşaçılara çatdırmaq lazımdır. Aktyorlar çalışır, tamaşaçılar qiymət verir. Qıraqdan baxanda çoxlarına elə belə görsənir ki, teatrdı dağ Amma içəridə mətbəxi çox mürəkkəbdir. Mənə çox maraqlı gəldi. Marağımdan dolayı mənim bunlara münasibətim də dəyişdi. Artıq mən özümü başqa yerdə hiss edə bilmirdim. Siz də gəlib baxdınız. Mənim üçün teatrın tamaşadan maraqlı hissəsi məşqin özüdür. Hətta mən orda rejissorlara pis mənada yox, yaxşı mənada yazığım da gəlir. Çünki onlar bəzi səbəblərdən aktyorlardan yüz faiz istədiklərini ala bilmirlər. O, tamaşanı özü üçün qurub. Belə də olmalıdır. Amma bəzən onu ala bilmirlər. Bu, rejissorlara çox çətin olur. Bu, çox canlı, mürəkkəb bir prosesdir. Burda insanın duyğuları, onların münasibətləri hamısı bir yerdə bir maraq üzərində alınır. Ona dəyər.

Qohumlar var, dostlar var, tanışlar var, hamısının da məndən "zəhləsi" gedir. Çünki bazar günü, şənbə günü mən hansısa qohumların yığıncağına, toylarına, şad günlərinə gedə bilmirəm. Deyirəm ki, bu yığıncaqları birinci gün edin, ya da ikinci gün. Onlar da deyirlər ki, ay balam, birinci gün də biz işləyirik. Belə şeylər olur. Amma teatrı qoyub getmək olmur. Teatrın işığı yanırsa, mən o gün gedib başqa yerdə otura bilmirəm. Bilirəm ki, burda proses, iş gedir. Teatra tamaşaçı gəlir caamat gəlir, elə bil sənin evinə qonaq gəlir. Sən çıxıb gedəcəksən? Əlbəttə ki, yox. Bu yaxşı çıxmaz(Gülür). Ona görə insan teatra bağlanır.

*- Qeyd etdiyiniz kimi, iqtisadçısınız, Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun "Xalq təsərrüfatının iqtisadiyyatı" fakültəsini bitirmisiniz. Necə oldu ki, Rus Dram Teatrına yolunuz düşdü?*

- Rəhmətlik, böyük sənətkarımız, SSRİ Xalq artisti Məlik Dadaşov bura teatrın bədii rəhbəri təyin olunmuşdu. Həm bədii rəhbər, həm də director idi. O vaxt mən komsomolda işləyirdim. Komsomol dağılmışdı, orada işləyənlərin çox faizi dövlətçiliklə bağlı iş aparmaqla yanaşı, çox güclü məktəb idi. O da bilirdi bunu. Mənə dedi ki, sən güclü, yaxşı məktəb keçmisən. Yeni komanda, yeni adamlar, yeni insanlar teatra cəlb edilmişdi. Mənim də onda 28 yaşım var idi. Dedi ki, Ədalət, gəl sən mənim yanımda müavin işlə. Doğrudan da mən bura gələndə tamam başqa vəziyyət idi. Sovet vaxtları idi. Tamaşaların hamısı sovet ideologiyasından bəhs edirdi, Lenin haqda idi. Teatrda çox şeyləri dəyişmək lazım idi. Yeni insanlara daha da yaxınlaşmaq lazım idi. Belə məsələlər vardı. Biz bu müddət ərzində işləməyə başladıq. Amma ondan sonra vəziyyət tamamilə dəyişdi. Öncə 20 yanvar hadisələri, sonra da Birinci Qarabağ Müharibəsi başladı. Buna baxmayaraq, teatr öz fəaliyyətini davam etdirirdi. Bizim rəhbərlik də dəyişdi. Sonra bizim teatra Ədalət Vəliyevi direktor təyin etdilər. Ədalət müəllim sonra mənə zarafatca deyirdi ki, bir təşkilatda iki Ədalət(Gülür)! Ədalət müəllim teatrda çox işləmişdi. Məndən çox təcrübəli idi. Teatrın bünövrəsi necə qoyulub, teatrda səhnənin necə düzəldilməsi, dekorasiyaların necə qurulması və s. məsələləri, bir sözlə, teatrı çox yaxşı bilirdi. Çünki bütün mərhələləri keçmişdi. Həmişə çalışırdı ki, təcrübəsiz kadrlara nəsə öyrətsin. Deyirdi ki, adam var bilir və demir, adam da var, deyir, öyrədir.

Yenə də deyirəm, kənardan baxanda teatr çox sadə görünür. Amma işin içinə daxil olanda çox mürəkkəbdir.

*- 2013-cü ildə Prezident İlham Əliyev tərəfindən "Əməkdar mədəniyyət işçisi" fəxri adına, 2019-cu ildə isə 60 illik yubileyiniz münasibətilə Mədəniyyət Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmisiniz. Hər halda, bu, sizin işinizə verilən qiymətdir. Özünüz necə, fəaliyyətinizdən razısınızmı?*

- Sözün açığı, elə insan deyiləm ki, fəaliyyətimdən razı olum. Bir də təkrarlamaq istəyirəm, teatr elə bir yerdi ki, gərək, hər gün nəyisə yenidən öyrənirsən. Bizim teatrda elə insanlar var ki, 40 il, 50 il iş təcrübələri var. Həmin sözləri onlardan da soruşsan, deyəcəklər ki, mən teatr haqda heç nə bilmirəm.

Hər gün burda nəsə öyrənirəm. Həmişə də deyirəm ki, bunu gərək belə edəydim, gələn dəfə, gələn sezondan belə etmək lazımdır. Yəni hər dəfə özüm-özümü tənqid edirəm ki, bunu düz etmədim, onu düz etmədim. Hardasa, bu, mənim özümə kömək olur. İnsan gördüyü işlərə nə qədər tənqidi yanaşsa, işlərinin yaxşı tərəfə doğru inkişaf etdiyini görəcək. Sözün açığı, özümdən razılığım yoxdur. Yaxşı ki, pis yox, yaxşı oldu. Doğrudan da, çox çətindir.

Bayaq iki rejissordan danışdım. Tamaşa özü bir komanda oyunudur. Tamaşa zamanı bir işığı düz qoymadın, aktyor nəyisə düz etmədi, kimsə biraz axsadı, bütün ümumi işə mənfi təsiri olur. Bunların bir-birinə zəncirvari bağlılığı var. Ulu Bəxtiyar Vahabzadənin belə misraları yadıma düşdü:

Bir özümdən razıyam ki,
Özümdən narazıyam.

Ona görə biz də özümüzdən narazıyıq.

- Dahi Hüseyn Cavid isə deyirdi:
Turana qılıncdan daha kəskin ulu qüvvət,
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət...

*- Şübhəsiz, mədəniyyətimizin inkişafında teatrların da özünəməxsus rolu var. Ümumiyyətlə, siz Azərbaycan teatrlarının indiki səviyyəsindən razısınızmı? Sizi qane etməyən nələrsə varmı?*

- 40, 50, 60 yaşlarında insanlar tamaşaya baxmağa gəlirlər, bu, bizim üçün adidir. Amma cavanlar gələndə bizim üçün, şəxsən mənim üçün həmin gün bayram olur. Görürəm ki, gənc adamlar teatra bir gəlişi ilə nə qədər qabağa, irəli düşürlər. Tamaşadan da əlavə, tamaşaçılara da fikir verirəm. Elə adamlar var ki, görürəm, bu teatra, bu binaya birinci dəfədir gəlir. Teatra baxmaqdan əlavə, qarderobda qadına kömək edib, paltosunu geydirən gənclər görmüşəm. Bilirsiniz də, tamaşa zamanı telefonlarla danışmaq, nəsə yemək olmaz. Bütün diqqət tamaşaya yönəlməlidir. Aktyora gül vermək, aktyora əl çalmaq reaksiyası da öz yerində olmalıdır. Həm də ki, bu bir saat, iki saat, üç saat ərzində sən bu kitabı oxudun. Bəlkə də sənin vaxtın yoxdur, işləyirsən, çalışırsan, təhsil alırsan. Bəlkə də bu yazıçı sənə maraqlı deyildi, amma sən bunu gəldin gördün, oxudun və bildin bu nə deməkistəyir. Teatrın bu barədə gənclərdə həm elmi, həm tərbiyəvi çox böyük rolu var. Ona görə də mən gənclərin bizim teatra gəldiyini görəndə çox sevinirəm. Sonra da görürəm ki, o adamlar yenidən tamaşalarımıza baxmağa gəlirlər. İki saat, 3 saat vaxtların itirirlər. Amma burdan gedəndə tamam başqa simada gedirlər. Hiss edirəm ki, tamaşalarımız xoşlarına gəlib.

Onu da deyim ki, bunun çox böyük əhəmiyyəti var.

*- Xalqımız həmişə mədəniyyətimizə bağlı olub. Dünənə baxanda bu gün mədəniyyətimiz necədir? Yəni müstəqilliyimizdən sonra mədəniyyətimizin inkişaf səviyyəsi sizi qane edirmi?*

- Yaxşı qeyd etdiniz. Bizim mədəniyyətimiz təkcə bu gün deyil, keçmişdə də həmişə yüksək səviyyədə olub. Bizim həmişə güclü şairlərimiz, yazıçılarımız, bəstəkarlarımız, aktyorlarımız, aktrisalarımız olub. Bizim "Yeddi gözəl" tamaşası var. Bizə Latviyadan SSRİ-nin Xalq artisti, səhnə əsərinin rejissoru Yonas Vaytkus gəldi, dövlət sifarişi ilə bu tamaşanı səhnələşdirdik. İndiyə kimi də tamaşa oynanılır. Getdi, öz ölkəsində də bu əsəri tamaşaya qoydu. O deyirdi ki, mən heç bilmirdim, Azərbaycanın bu cür dahi Nizami Gəncəvisi var. O Nizami Gəncəvi ki, onun yazdıqlarını Şekspir götürüb. Onun yazdıqlarından başqa dünya ədibləri götürüb. Amma Nizami Azərbaycanda yeddi hadisəni seçərək özü danışır. Gəlib burda tamaşaya baxandan sonra özünüz də görəcəksiniz ki, Avropadan olan Avropa mədəniyyətini bizim mədəniyyətimizlə eyniləşdirib. Çox gözəl proyekt alınmışdı. Bu, ondan irəli gəlir ki, Azərbaycanın mədəniyyətini bizim repertuarda canlandıran Cəfər Cabbarlı, Səid Qurban, Nizami, Elçin, Anar və s. ədibləri var. Vaqif Səmədoğlunun əsəri gedir. Həm də Rusiyanın, dünya ədiblərinin əsərlərini tamaşaya qoyuruq. Rus dili belə dildir ki, bizim Bakıda çox millətlər yaşayır... Multikulturalizm sözünün ərxasında doğrudan da real vəziyyət dayanır. Məsələn, öz teatrımızda ştat cədvəlinə baxanda görürəm ki, Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri bizdə çalışır. Düzdür, bizim dövlət dilimiz "Azərbaycan dili"dir. Onlar bizim ana dilimizi bilirlər. Biz rus dilində tamaşalar oynayırıq. Rus dili bunları birləşdirir. Bu da bizim mədəniyyətimizdir.

Misal üçün, biz Mirzə Fətəli Axundovu, Nizamini rus dilində Rusiyanın Sankt Peterburq şəhərində və digər ölkələrin şəhərlərində - Kiyev, Odessa, Moldova, Tbilisidə oynayanda bizə xüsusi tərcüməçi lazım olur. Amma onlar rus dilini bildiklərinə görə, çox rahat olur, Odessada, Kiyevdə, Moskvada "Müsyo Jordan" tamaşası zamanı bunu özüm görmüşəm. Tamaşaçı çıxırdı, öz aralarında deyirdilər ki, daha başqa nə söhbət ola bilər?! Hələ ədib 200 il bundan əvvəl bu əsəri yazıb.

Bunlara nə qədər "Qarabağ Azərbaycanındır" desən, deyəcəklər ki, özlərini tərifləyirlər. Amma onlar özləri baxıb hər şeyi görürlər. Axı o vaxtlar Qarabağ problemi də yox idi. Artıq başa düşürlər ki, Azərbaycanın qonağı gəlib. Qarabağ torpağının atları, yeməkləri var. Fransızlar bizim adətənənəyə görə qonağı necə qəbul etmək lazımdır, bunları danışır. Yəni demək istəyirəm ki, bu faktları teatrla birlikdə başqa millətlərə çatdıra bilirik. Bu barədə də, əlbəttə, dövlətimiz də, Mədəniyyət Nazirliyi də, sağ olsunlar, bizim teatra dəstəklərini əsirgəmirlər.

Teatrımız 2008-ci ildə təmir olundu və demək olar ki, yenidən quruldu. Hər şey yeniləndi. Rusiyada belə bir kollektiv yoxdur ki, Bakıya gəlməsin, bu səhnədə çıxış etməsin. İmkanımız olduğuna görə onları dəvət eləmişik. Çünki onlar soruşurlar ki, səhnə necədir, işığınız necədir? Bizim texnika səviyyəmiz, teatrımız güclü olmasa, onlar bura gəlməzlər. Onlar görürlər ki, bizim texnikamız var, teatr bu cür təmir olunub, ona görə də gəlib iştirak edirlər. Çünki onlar görürlər ki, bizdə o imkanlar var. Bu yaxınlarda, noyabrda dünyanın ən məşhur Kukla teatrı - Obraztsov adına Mərkəzi Dövlət Akademik Kukla Teatrı bizim Kukla teatrına yerləşə bilmədiklərinə görə bizim teatrı seçmişdilər. Yəni buranın səhnəsini tamaşalarına görə yox, böyüklüyünə görə seçirlər. Ancaq üç və ya dörd tamaşanı götürüb öz repertuarlarına sala bilirlər. Texniki tərəfdən hər şey onları razı salır, işıqdan tutmuş, qurğunun işləməyinə qədər hamısı böyük şərtdir.

*- Ədalət müəllim, İncəsənətimizdə, mədəniyyətimizdə nələrin dəyişməsini istərdiniz?*

*(Ardı var)*

**Söhbətləşdi: Fuad BİLƏSUVARLI**



"İnsan gördüyü işlərə nə qədər tənqidi yanaşsa, işlərinin yaxşı tərəfə doğru inkişaf etdiyini görəcək"